# SMART business

Microsoft Dynamics 365 Business Central

# SMART LOCALIZATION

## Təkmilləşdirmə qeydləri buraxılışı

v. 2026.01

Nəşr olunub

**Məxfilik bildirişi:** Bu sənəd məxfidir və kommersiya xarakterli məxfi məlumatları, həmçinin SMART business şirkətinin əqli mülkiyyətini ehtiva edir. Nə bu sənəd, nə də burada olan hər hansı məlumat SMART business şirkətinin əvvəlcədən yazılı razılığı olmadan heç bir halda çoxalda və ya açıqlana bilməz. Nəzərə alın ki, bu sənədin və buradakı məlumatın açıqlanması, surətinin çıxarılması, yayılması və ya istifadəsi qəti qadağandır.

# Mündəricat

**1.** Giriş hissəsi ........ 3

**2.** SMART Core & Localization for AZ Mühasibat Uçotunun təkmilləşdirilməsi ........ 4

**3.** SMART Payroll təkmilləşdirilməsi ........ 9

**4.** Sistemin təkmilləşdirilməsi proseduru ........ 14

**5.** SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar ........ 15

# 1. Giriş hissəsi

Sənəd növbəti müntəzəm təkmilləşdirmə 2026.01-a daxil olan SMART Localization həllinin funksionallığında təkmilləşdirmələri və dəyişiklikləri təsvir edir. Təkmilləşdirməyə 01.10.25 tarixdən 31.12.25 tarixə qədər olan dövr üçün funksionallıq dəyişiklikləri daxildir.

## Məsuliyyətin məhdudlaşdırılması

Bu sənədin məzmunu yalnız məlumat üçündür və dərc olunduğu tarixdə SMART business MMC-nin mövzu ilə bağlı nəzər nöqtəsini əks etdirir. Bu sənəd və onun məzmunu SMART business MMC-nin öhdəliyi deyil və öhdəlik kimi təfsir edilməməlidir. SMART business MMC bu sənəddə olan hər hansı məlumatın düzgünlüyünə zəmanət vermir.

## Müəllif hüquqları haqqında xəbərdarlıq

Müəllif hüququ ilə bağlı bütün qanunlara riayət etmək istifadəçinin məsuliyyətidir. Bu sənədin məzmunu SMART business MMC-nin müəllif hüquqlarıdır. Müəlliflik hüququnun sahibi kimi SMART business MMC-nin hüquqlarını məhdudlaşdırmadan, bu sənədin heç bir hissəsi çoxaldıla, saxlanıla və ya axtarış sisteminə daxil edilə, yaxud hər hansı formada və ya hər hansı üsulla (elektron, mexaniki, surətçıxarma, qeyd, və ya başqa şəkildə) və ya hər hansı məqsədlə, yaxud SMART business MMC-nin açıq rəsmi yazılı icazəsi olmadan hər hansı digər işə və ya nəşrə daxil edilə bilməz. Bu sənədin çıxarışlarını şəxsi istifadəniz üçün köçürə bilərsiniz.

SMART business MMC bu sənədin mövzusu ilə bağlı patentlərə, patent müraciətlərinə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına malik ola bilər. SMART business MMC-nin hər hansı ayrıca yazılı lisenziya müqaviləsində açıq şəkildə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu sənədin təqdim edilməsi Sizə bu patentlərə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyətə heç bir lisenziya vermir.

© 2026 SMART business. Bütün hüquqlar qorunur. Burada qeyd olunan faktiki şirkətlərin və məhsulların adları onların müvafiq sahiblərinin ticarət nişanları ola bilər.

# 2. SMART Core & Localization for AZ Mühasibat Uçotunun təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| CORE | #75974 | Buraxılmış sənədlərə ödənişlərin çoxvalyutalı tətbiqi zamanı sənəd valyutasında tətbiq edilmiş avans ödənişlərin yenidən hesablanması əlavə edilmiş və sonrakı avans ödənişlərin tətbiqi üçün sənəddə qalan məbləğin düzgün hesablanması təmin edilmişdir. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #77538 | ƏV dövriyyə cədvəli hesabatında personalizasiya funksiyası vasitəsilə ƏS təsviri, ƏS-in yerləşməsi və məsul əməkdaşın adı xanalarını göstərmək imkanı əlavə edildi. | Əsas vəsaitlər | New feature |
| CORE | #77885 | İşçilərlə və Bank çıxarışları ilə iş funksionallığının yenilənməsi: İşçi kartına işçinin bank hesabı məlumatlarını ətraflı şəkildə əks etdirən yeni "İşçilərin bank hesabı siyahısı" cədvəli əlavə edilib. Yüklənən bank çıxarışının işçi üzrə identifikasiyası həyata keçirilib ki, bu da yükləmə zamanı ödənişin müvafiq işçiyə avtomatik olaraq təyin edilməsinə imkan verir. Microsoft-un platformanın 27.1 versiyasında etdiyi dəyişikliklərə uyğun olaraq "Bank çıxarış buferi" lokalizasiya funksionallığı adaptasiya olunub. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #86891 | Məhsulun köçürülməsinin ləğvi zamanı müxabirləşmələrin formalaşdırılması məntiqi dəyişdirilmişdir: bu cür əməliyyatlarda müxabirləşmələr yaradılarkən malların əməliyyatlar kitabındakı "Düzəliş" atributu nəzərə alınır. | Əməliyyatlar üzrə hesabatlıq | New feature |
| CORE | #87184 | #87184 New logic for G/L Correspondence entries when posting Open Statement yeni funksiya əlavə edilmişdir. Bu funksiya pərakəndə ticarət üzrə sənədlərin muxabirləşmələrinin alternativ məntiqini aktiv etməyə imkan verir. | Əməliyyatlar üzrə hesabatlıq | New feature |
| CORE | #88116 | Ödəniş bir neçə əməliyyata tətbiq edildiyi hallarda bank ödəniş jurnalının uçotu zamanı əvvəlcədən təyin olunmuş filtrlərin sıfırlanmasına səbəb olan xəta aradan qaldırıldı. | Lokalizasiyanın əsası | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| **CORE** | #88548 | Əsas vəsaitlərin mallar vasitəsilə modernləşdirilməsi üçün lokallaşdırma funksionallığı Microsoft-un "Enable multiple users to post item ledger entries and value entries at the same time" funksiyasına uyğunlaşdırıldı. | Əsas vəsaitlər | New feature |
| **CORE** | #89002 | Valyuta sənədlərində (konvertasiya, alqı-satqı) məbləğlərin hesablanma məntiqi düzəldildi. "Alınacaq məbləğ" xanasında dəyər dəyişdirildikdə, sistem indi əlavə olaraq "Xərc məbləği" və "Komissiya məbləği" xanasındakı dəyərləri də yuvarlaqlaşdırır. "Xərc məbləği" xanasında dəyər dəyişdirildikdə isə, uyğun olaraq "Alınacaq məbləğ" və "Komissiya məbləği" yuvarlaqlaşdırılır. Yuvarlaqlaşdırma valyuta sazlamasında konkret olaraq "Məbləğin yuvarlaqlaşdırma dəqiqliyi" xanasının dəyərinə uyğun şəkildə həyata keçirilir. | Nağd pul və bank idarəedilməsi | Bugfix |
| **CORE** | #89469 | Bank hesabı məlumatları və Defolt analitik vahidlər səhifələrində analitik vahidlərin sinxronizasiyası ilə bağlı xəta aradan qaldırılıb. Bu xəta bank çıxarışının tanınması zamanı analitik vahidlərin düzgün doldurulmamasına səbəb olurdu. | Lokalizasiyanın əsası | Bugfix |
| **CORE** | #89775 | Saxlama qutularına malik anbarlar üçün silmə aktlarında sətirlərin yaradılması funksionallığı təkmilləşdirildi. Əgər qutu boşdursa, “Silmə aktının sətirlərini hesablamaq” funksiyası işə salındıqda yeni sətirlər yaradılmır. | İnventar | New feature |
| **CORE** | #89979 | “Əsas vəsaitlər üzrə dövriyyə cədvəli” hesabatı açıldıqda, əvvəlcədən hesablanmış yekun məbləğlərin avtomatik silinməsi əlavə edilib. | Əsas vəsaitlər | New feature |
| **CORE** | #89985 | Müştəri və təchizatçı kartına yeni “Gələn sənədlər” bölməsi əlavə olundu və bu kartlardan birbaşa gələn sənəd yaratmaq imkanı yaradılıb. Gələn sənədlərin ümumi bölməsində isə gələn sənədi müştəri və ya təchizatçı kartına bağlamaq imkanı da əlavə edilib. | Lokalizasiyanın əsası | New feature |
| **CORE** | #89986 | Qiymət dəyişiklikləri sənədləri yaradılarkən sətirlərdə ƏDV məhsul uçot qrupu və ümumi məhsul uçot qrupunun doldurulması qaydası dəyişdirildi. Əvvəllər ƏDV məhsul uçot qrupu məhsul kartından, ümumi məhsul uçot qrupu isə məhsul ödənişindən doldurulurdu, indi isə — uçota alınmış satış göndərişi sənədinin sətrindən doldurulur. | Lokalizasiyanın əsası | New feature |

| | | | | |
|---|---|---|---|---|
| CORE | #90040 | Malların dövriyyə cədvəli və Malların dövriyyə cədvəli (miqdar üzrə) tərtib edilərkən yanlış saxlanılmış filtrlərin təmizlənməsi mexanizmi təkmilləşdirildi. | Əməliyyatlar üzrə hesabatlıq | Bugfix |
| CORE | #90125 | Ödənişlərin uçota alınmasından əvvəl bölüşdürülmə sazlaması aktiv olduqda, müştəri ödənişlərinin avtomatik tətbiqi funksionallığı təkmilləşdirilib: sistem artıq bu cür ödənişlərin avtomatik tətbiqindən dərhal sonra onların bölüşdürülməsini həyata keçirir və müvafiq ödənişlər üçün sifariş nömrəsini düzgün şəkildə qeydə alır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #90724 | Satış kredit notası və ya satışın qaytarılması sifarişi yaradarkən 'Geri qaytarma üçün uçota alınmış sənəd sətirlərini gətir' funksiyasından istifadə edildikdə məbləğlərin mənfi işarə ilə yaradılması problemi aradan qaldırıldı. | Lokalizasiyanın əsası | Bugfix |
| CORE | #90902 | Excel şablonları vasitəsilə hesabatlar yaradılarkən HTTP sorğuları üçün timeout parametrlərini tənzimləmək imkanı əlavə edilib. İstifadəçilər xidmət sorğulanmasının maksimal icra müddətinə nəzarət etmək üçün Excel Report Builder-in tənzimləmə səhifəsində timeoutun (millisaniyələrlə) dəyərini təyin edə bilərlər. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #91366 | "Təchizatçı ödənişlərini təklif et" funksiyasında "Buraxılmış alış sifarişlərini daxil et" və "Təchizatçı üzrə ümumiləşdir" seçimləri aktiv olduqda, buraxılmış alış sifarişləri üzrə ödəniləcək məbləğlərin yanlış hesablanması düzəldilmişdir. | Lokalizasiyanın əsası | Bugfix |
| CORE | #92207 | Satışın qaytarılması sətirlərində bir neçə hesab seçildikdə, sənəd mənbəyi növü "Uçota alınmış hesab" olan satış qaytarılmasının uçota alınması imkanı əlavə edildi. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #92678 | Avans hesabatlarının lokallaşdırma funksionallığı Microsoft-un 27-ci versiyasında edilmiş dəyişikliklərə uyğunlaşdırılmışdır.<br>Avans hesabatında təhtəlhesab tipi ilə sətrin doldurulması zamanı yaranan xəta aradan qaldırılmışdır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #92754 | SMART Feature Flags səhifəsinə #92754 New logic for Suggest vendor payments to adjusts payment amounts" adlı yeni sazlama əlavə olunub. Bu sazlama ilə "Təchizatçı ödənişlərini təklif et" funksiyası üzrə "Təchizatçı üzrə ümumiləşdirmək" seçimi ilə təchizatçılara ödənişlərin formalaşdırılması funksionallığı təkmilləşdirilib: sistem artıq təchizatçının | Lokalizasiyanın əsası | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | açıq borc qalığını aşan ödəniş məbləğlərini nəzərə alır və buraxılmış sənədlər üzrə tətbiq edilən ödəniş məbləğini müvafiq olaraq azaldır. | | |
| CORE | #92760 | Uçot zamanı "Təchizatçı üzrə ödənişləri bölüşdürmək" seçimi aktiv olduqda, təchizatçı üzrə yekun ödənişlərin uçota alınması zamanı yaranan xətalar aradan qaldırıldı. | Lokalizasiyanın əsası | Bugfix |
| CORE | #92918 | Excel şablonlarından istifadə etməklə hesabatların formalaşdırılması zamanı bir neçə şəkil əlavə etmək imkanı əlavə edilmişdir. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #93522 | Malların qəbul aktı və uçota alınmış qəbul aktının sətirlərində sahələrin göstərilməsi dəyişdirilmişdir: "Vahid üzrə məbləğ" və "Məbləğ" xanaları standart olaraq gizlədilir və onları səhifənin fərdiləşdirilməsi vasitəsilə səhifəyə əlavə etmək mümkündür. | İnventar | New feature |
| CORE | #93541 | Malların silinməsi aktında tətbiq zamanı sətirlərin bölünməsi düzəldildi: indi sistem sənəd sətrində göstərilən variant kodunu nəzərə alır. | İnventar | Bugfix |
| CORE | #93619 | Mallar üzrə avtomatik maya dəyərinin uçotu deaktiv edildikdə, mallardan istifadə etməklə bir neçə əsas vəsaitin modernizasiyası zamanı yaranan əsas vəsaitlərin dəyərinin hesablanmasında olan xəta aradan qaldırılıb. | Əsas vəsaitlər | Bugfix |
| CORE | #95385 | Uçota alınmış satış hesabatı əsasında pərakəndə satışların geri qaytarılması üzrə formalaşdırılan müxabirləşmələrin yaradılması düzəldilib. | Əməliyyatlar üzrə hesabatlıq | Bugfix |
| CORE | #95434 | Bank çıxarışının importu zamanı kontragentin qeydiyyat nömrəsi sahəsinin 20 simvoldan çox olması ilə bağlı xəta aradan qaldırıldı. | Lokalizasiyanın əsası | Bugfix |
| CORE | #95437 | ƏV amortizasiya dövriyyəsinin əlavə hesabat valyutasında formalaşdırılması zamanı yaranan xəta aradan qaldırılmışdır. | Əsas vəsaitlər | Bugfix |
| CORE | #95905 | BK hesab dövriyyəsinin funksionallığı təkmilləşdirilmiş və son platforma dəyişikliklərinə uyğunlaşdırılmışdır: müvafiq seçim aktivləşdirildikdə genişləndirilmiş balans məbləğlərinin avtomatik göstərilməsi təmin edilmiş və 'Dövrün sonuna qalıq Debit' və 'Dövrün sonuna qalıq Kredit' sahələri üçün uçot tarixi filtrinin tətbiqi düzəldilmişdir. | Əməliyyatlar üzrə hesabatlıq | New feature |
| CORE | #95934 | "Xana" sahəsinin dəyərinin icazə verilən simvol sayının aşması ilə bağlı malların dövriyyə-qalıq cədvəlinin (miqdar | | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| | | üzrə) formalaşdırılmasında yaranan xəta aradan qaldırılıb | | |
| **AZ** | #89933 | Ödəniş tarixinə valyuta məzənnəsinə əsasən Bank Ödəniş Jurnalında Məbləğ (LOK) xanasının hesablanması qaydası dəyişdirilmişdir. Eyni göstərici ƏDV Əməliyyatları və ÖMV Əməliyyatları kitablarında da əks olunur. | Tax Management | New feature |
| **AZ** | #91360 | Bank Ödəniş Jurnalında "Sənəd nömrəsinə uyğunlaşdır", "Sənəd İD-nə uyğunlaşdır", SMA Suggest Vendor Payments funksiyaları vasitəsilə sətirlər yaradarkən Məbləğ xanasının avtomatik doldurulması yerli ƏDV ödənişi funksionalı üçün çətinlik yaradır. Bu səbəbdən qeyd edilən funksiyaların istifadəsi zamanı Məbləğ xanası göstəricisinin düzgünlüyünü yoxlamaq üçün bildiriş əlavə edilmişdir. Həmçinin bu xananın yenidən hesablanması üçün yeni "Məbləği yenidən hesabla" düyməsi əlavə edilmişdir. | Tax Management | New feature |
| **AZ** | #91780 | Dövlət Vergi Xidmətinin elektron qaimə sistemi ilə inteqrasiya məqsədilə sistemin mallar siyahısı ilə elektron vergi sistemində EQM mal kodları siyahısının sinxranizasiyası üçün yeni soraqça yaradılmışdır. | Tax Management | New feature |
| **AZ** | #91785 | Sistemdəki mallar siyahısı ilə Vergi EQM mal kodlarının üzləşdirilməsi üçün yeni soraqça yaradılmışdır. | Tax Management | New feature |
| **AZ** | #92037 | Alış fakturasında sətirlərin alt tərəfində yerləşən xanaların hesablama məntiqlərinə düzəliş edilmişdir. | Tax Management | Bugfix |

# 3. SMART Payroll təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| CORE | #91776 | Yeni № 330 əmək haqqı hesablama funksiyası əlavə edildi. Bu funksiya, ləğv edilməmiş ödənişləri olan əmək haqqı sənədləri arasındakı məbləğləri qaytarır. Baza məbləği ilə işləyir. Baza məbləği sazlamasında istənilən məbləğ tipini seçmək, element kodu filtrini, element qrup filtrini tətbiq etmək və ya bir element Kodu göstərmək mümkündür. Funksiya, müəyyən edilmiş dövr kodu daxilində olan məbləğləri götürür. | Əmək haqqının hesablanması | New feature |
| CORE | #90652 | İş günlərinin yenidən hesablanması üçün istifadə olunan RECALCULATE WORK DAYS funksiyasına əsaslanan məzuniyyət və digər işdə olmama elementlərinin əmək haqqı hesablamaları yenilənib. Ödəniləcək günlərin düzgün müəyyən olunması üçün RECALCULATE WORK DAYS funksiyası CALC TIME MEASURE funksiyası ilə əvəz edilib və uyğun parametr təyin olunub. | Əmək haqqının hesablanması | Bugfix |
| CORE | #95853 | “Əmək haqqı sənədlərini təklif et” hesabatı “Dövrarası uçot ilə” tipli hesablaşma qrupu üzrə işə salındıqda, əmək haqqı sənədlərinin “Əmək haqqı hesablama qrupu” sazlamasında “Sənədlərin silinməsi filtri” parametrinə əsasən silinməsi imkanı reallaşdırılıb. | Əmək haqqının hesablanması | New feature |
| CORE | #89041 | İşçilər üçün ödənişlər yaradılarkən vergi məbləğlərinin təfərruatlarını yaratmaq imkanı təmin edilmişdir. Son vergi ödənişi yaradılarkən, işçi üçün dövr arası əmək haqqı ödənişi üzrə vergi məbləğlərinin təfərruatları nəzərə alınır. | Əmək haqqı ödənişləri | New feature |
| CORE | #92067 | SMART Payroll-da əvvəl mövcud olan bəzi cədvəl və sahə məlumatları SMART Core-a köçürülmüşdür: Cədvəl SMART Payroll: SMA Employee Bank Account (70950712) → SMART Core: SMA Employee Bank Acc. | Əmək haqqı ödənişləri | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | (70859663) Xana SMART Payroll: Employee."SMA Employee Bank Code" (70950625) → SMART Core: Employee."SMA Empl. Bank Code" (70859601) Xana SMART Payroll: EmployeeLedgerEntry."SMA Recipient Bank Account" (70950582) → SMART Core: EmployeeLedgerEntry."SMA Recipient Bank Acc." (70859600) Bundan sonra məlumatlar SMART Core mənbəyindən istifadə edilməlidir. Əgər sistemdə SMART Payroll məlumatları ilə bağlı hər hansı modifikasiya edilmişdirsə, onu yeniləmək tələb olunur. | | |
| CORE | #90134 | “Fiziki şəxs” və “İşçi” kartları üçün atribut funksionallığı yaradılıb. Bu, şirkətin biznes proseslərində istifadə olunan əlavə xüsusiyyətləri modifikasiya vasitəsilə əlavə sahələr yaratmağa ehtiyac olmadan saxlamağa və idarə etməyə imkan verir. | Ştat cədvəli | New feature |
| CORE | #89827 | İşçi jurnalı və Məzuniyyət jurnalı üçün başlanğıc tarixi yoxlama məntiqi yenilənmişdir: İşçi jurnalı üçün:“Əmək haqqı sazlama sətirlərini təklif etmək” tapşırığı vasitəsilə sətirlər yaradılarkən, yaradılan qeydlərin başlanğıc tarixinin müəyyənləşdirilməsi mexanizmi təkmilləşdirilmişdir. Əgər işçi hesabat parametrlərində göstərilən başlanğıc tarixindən sonra işə qəbul olunubsa, sistem indi başlanğıc tarixini avtomatik olaraq işçinin işə qəbultarixi ilə eyniləşdirir. Məzuniyyət jurnalı üçün: Təqvim ili əsasında hesablanan məzuniyyət növləri üçün yoxlama məntiqi yenilənmişdir. İndi, əgər başlanğıc tarixinin ili işçinin işə qəbul ilinə uyğundursa, balansın tam təqvimili üçün daxil edilməsinə (işə qəbul tarixi ilə məhdudlaşmadan) icazə verilir. | Ştat cədvəli | New feature |
| CORE | #90109 | Fiziki şəxs kartındakı 'Ailə vəziyyəti' xanasına yeni 'Mülki nikah' seçimi əlavə edilib. | Ştat cədvəli | New feature |
| CORE | #90898 | Ştat cədvəli əmri vasitəsilə təsdiq edilmiş Büdcə Vəzifəsində ştat sayı dəyişdirildikdə | Ştat cədvəli | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| | | Baza Əmək Haqqı Məbləği və Aylıq Əmək Haqqı Məbləği xanalarının hesablanmasına düzəliş edildi. İndi Büdcə Vəzifəsində Baza Əmək Haqqı Məbləği və Aylıq Əmək Haqqı Məbləği xanaları dəyişdirilmiş ştat sayı əsasında hesablanır. | | |
| CORE | #95956 | İşə qəbul əməliyyatı təsdiqləndikdə, fiziki şəxsin kartındakı foto avtomatik olaraq işçinin kartına köçürülməsi imkanı əlavə edilmişdir. | Ştat cədvəli | New feature |
| CORE | #91809 | Sistemdə artıq istifadə olunan əmək haqqı təqvimi sətirləri silinərkən izahedicİ bildiriş əlavə edildi. | Tabel | New feature |
| CORE | #92452 | İş vaxtının cəmlənmiş uçotu təqvimi üçün normadan artıq iş saatları əlavə edilərkən, əlavə olunduğu iş günündə 13 və ya daha çox iş saatı olduqda yaranan məhdudiyyət aradan qaldırıldı. Əvvəllər sistem aktivlik kodunu nəzərə almadan gün üzrə ümumi 24 saat nəzərə alırdı ki, bu da bütün dövr üzrə normadan artıq iş saatlarını düzgün şəkildə əlavə etməyə imkan vermirdi. Qeyd: bu yanaşmanın aktiv edilməsi üçün normadan artıq iş vaxt aktivlik kodunun sazlamasında "Normadan artıq işlərə icazə ver" xanasında "Xeyr" dəyəri ilə doldurulmalıdır. | Tabel | New feature |
| CORE | #95818 | İş vaxtının cəmlənmiş uçotu tipli əmək haqqı təqvimində 'Dövrün sonunda hesabla' parametrinin məntiqi yenilənmişdir:<br>eyni iş vaxtının cəmlənmiş uçotu dövrünə malik fərqli təqvimlərə keçid zamanı normadan artıq iş saatları sonuncu təqvimə uyğun hesablanır. İş vaxtının cəmlənmiş uçotu dövrü üçün normativ saatların və ya orta normativ saatların sayını hesablayan yeni hesablama funksiyaları yaradılmışdır. | Tabel | New feature |
| CORE | #96031 | Məzuniyyət müraciətində "Planlaşdırılmış il" xanasında əlaqəli cədvələ yeni məzuniyyət cədvəlindən məlumatların seçilməsi imkanı əlavə edilib. | İşdə olmama əmrləri | New feature |

| | | | | |
|---|---|---|---|---|
| **CORE** | #93553 | İndi proqramın standartında yeni məzuniyyət qrafiki istifadə olunur. Məzuniyyət qrafikinin əvvəlki versiyasından istifadə etmək üçün müvafiq funksiyanın aktiv edilməsi tələb olunur (SMART Feature Flag vasitəsilə aktiv edilə bilər). | İşdə olmama əmrləri | Bugfix |
| **CORE** | #90816 | "İşçi uçot qrupu" adlı yeni xana "İşçi bank hesabı matrisi" cədvəlinə və səhifəsinə, eləcə də "İşçi bank hesabı" cədvəlinə və səhifəsinə əlavə edilmişdir.<br>"İşçilərin əmək haqqı ödənişini təklif et" (Payroll Sheet) hesabat səhifəsinə də "İşçi uçot qrupu" sahəsi üzrə yeni filtr əlavə olunmuşdur. Bu dəyişikliklər əməkdaşın uçot qrupu üzrə filtrasiya edərək ödənişlərin formalaşdırılmasına imkan yaradır. Bu, xüsusilə əmək haqqı uçot qruplarında əlavə işçi uçot qrupu təyin edildikdə məbləğlərin ayrı ödəniş cədvəlləri üzrə və işçinin ayrı-ayrı bank hesablarına ödənilməsi lazım olduqda faydalıdır. | Əmək haqqı ödənişləri | New feature |
| **AZ** | #90965 | "Tabel P-5" hesabatının formalaşdırılması optimallaşdırılmışdır.<br>Vəzifə və departamentin doldurulma məntiqi yenilənmişdir.<br>"Departamentlər üzrə bölmək" seçiminin aktiv və ya deaktiv olmasından asılı olaraq məlumatlar müvafiq tarixə və ya dövrün son gününə əsasən götürülür. Əvvəllər məlumat mənbəyi əməkdaş kartı idi. | Hesabatlıq. Çap formaları | New feature |
| **AZ** | #90885 | 2026-cı ildən Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən qeyri-dövlət və özəl sektorda əmək haqqıdan tutulan gəlir vergisinin hesablanmasına düzəliş edilmişdir,bu dəyişiklərə uyğun olaraq sistemdə müvafiq sazlamalar aparılmışdır. | Əmək haqqının hesablanması | New feature |
| **AZ** | #94457 | Uşaqlar üçün əlavə məzuniyyət günlərinin Add Additional Vacation Days hesabat vasitəsilə avtomatik yaradılması zamanı qohumlar cədvəlində qohumluğun | Ştat cədvəli | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| | | başlanma tarixinə uyğun nəzarət təmin edilmişdir. | | |

# 4. Sistemin təkmilləşdirilməsi proseduru

Sistemin təkmilləşdirilməsi iki mərhələdən ibarətdir:

- Kodun təkmilləşdirilməsi
- Məlumatların təkmilləşdirilməsi

Kodun təkmilləşdirilməsi iki versiyanın mətn birləşməsi ilə həyata keçirilən, obyekt dəyişikliklərinin buraxılışdan müştəri bazasına köçürülməsidir.

Məlumatların təkmilləşdirilməsinə yeni buraxılışda məlumat sxemi dəyişdirdikdə və ya yeni parametrlər olduqda mövcud məlumatların dəyişdirilməsi aiddir. Məlumatların təkmilləşdirilməsi prosedurunun başlanması zamanı kod yeniləndikdə mövcud məlumatlar avtomatik olaraq dəyişdirilir. Yeni modulların sazlanması əl ilə həyata keçirilir.

# 5. SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar

1. SMART business (bundan sonra “Şirkət” adlandırılacaq), Microsoft Dynamics Tərəfdaş Lokalizasiya və Tərcümə Lisenziyalaşdırma Proqramında (PLLP) müəyyən edilmiş tələblərə və məhdudiyyətlərə uyğun olaraq SMART Lokalizasiya həllini (bundan sonra “Həll” adlandırılacaq) inkişaf etdirir və təkmilləşdirir.
2. Hər rübün ilk iş günü Şirkət Həll təkmilləşdirmələrini dərc edir. Sonradan Şirkət təkmilləşdirmələrin buraxılış tezliyini dəyişdirmək hüququnu özündə saxlayır.
3. Həllərin təkmilləşdirmələri Microsoft dəstək müddəti mərhələsində olan bütün Microsoft Dynamics NAV və Microsoft Dynamics 365 Business Central məhsul versiyaları üçün aktiv abunəsi olan Şirkətin müştərilərinə ödənişsiz əsasda təqdim olunur. Proqram məhsulunun bitmə dövrünü yoxlamaq üçün https://support.microsoft.com/en-us/lifecycle/search ünvanına keçin.
4. Müştərinin sisteminin təkmilləşdirməsi təkmilləşdirmə cədvəllə, həmçinin müştəri sistemlərinə təkmilləşdirmələrin köçürülməsi, o cümlədən parametrlərin təkmilləşdirilməsi və sistemin sınaqdan keçirilməsi üzrə işlərin həcmi əvvəlcədən razılaşdırılmaqla həyata keçirilir və növbəti versiyanın buraxılışından gec olmayaraq başa çatdırılmalıdır. Təkmilləşdirmənin təxmini buraxılış cədvəli 3 ayda bir dəfədir. Təkmilləşdirmə əvvəlcədən qarşılıqlı razılaşma əsasında 3 aya təxirə salına bilər.
5. Sistemin müştəri tərəfindən müstəqil təkmilləşdirilməsi imkanı da nəzərdə tutulub. Bu məqsədlə, Şirkət məlumatların təkmilləşdirilməsi üçün parametrlərin və skriptlərin yenilənməsi ilə bağlı tövsiyələr daxil olmaqla, təkmilləşdirmələri təmin etməlidir. Lakin, qeyd etmək lazımdır ki, sistemin müştəri modifikasiyaları təkmilləşdirmənin mənbə kodu ilə uyğun gəlməyə bilər və nəticədə sistemin təkmilləşdirilməsi və ya yerinə yetirilmiş modifikasiyası düzəliş edilməlidir.
6. Şirkət 4-cü bəndə uyğun olaraq aktiv abunələri olan və müntəzəm yeniləmələri həyata keçirən müştərilər üçün Həll səhvlərini pulsuz olaraq düzəldəcək.
7. Şirkət hər bir təkmilləşdirmədə dəyişikliklərin ətraflı təsvirini təqdim etməli və onu təkmilləşdirmənin buraxıldığı tarixdən gec olmayaraq dərc etməlidir.
8. Qanunvericilikdəki diapazondan kənar yeniləmələr və ya diapazondan kənar xətaların düzəldilməsi, təkmilləşdirmə buraxılışlarının tezliyindən asılı olmayaraq müştərilərə təqdim edilir.
9. 3-cü bəndə uyğun olaraq Microsoft-un dəstəyinin əsas müddətinə daxil edilməyən sistemin “köhnəlmiş” versiyaları və ya aktiv abunəsi olmayan müştərilər üçün Həllin tam və ya fərdi funksionallığının təkmilləşdirməsi Şirkət tərəfindən müvafiq qaydada həyata keçirilir, nəzərə alaraq ki, belə bir təkmilləşdirmə xüsusi olaraq belə müştəri üçün hazırlanmışdır və nəticədə belə müştəriyə ödənişli əsasda təqdim edilə bilər.
10. Bu müddəa və şərtlərdən hər hansı bir kənarlaşma razılaşma şəklində sənədləşdirilməlidir, əks halda bu şərtlər tətbiq edilir.